

Asiya İnkişaf Bankı və

# AZƏRBAYCAN

## FAKTİKİ MƏLUMATLAR

**Cədvəl 1. Azərbaycan: 2011 Kredit, Texniki Yardım və Qrantlar ($ milyon)**

| Kreditlər | | | | |
|---|---|---|---|---|
| Dövlət | Qeyri-dövlət | Texniki Yardım | Qrantlar | Cəmi |
| 500.00 | – | – | – | 500.00 |

– = sıfır.

**Cədvəl 2. Azərbaycan: AİB-in Sektorlar üzrə Ayırdığı Kreditlər–31 Dekabr, 2011[a]**

| Sektor | Kredit | Məbləğ | %[b] |
|---|---|---|---|
| K/təsərrüfatı və Təbii Ehtiyatlar | 1 | 22.00 | 1.85 |
| Enerji | 2 | 187.00 | 15.75 |
| Maliyyə | 4 | 66.00 | 5.56 |
| Nəqliyyat və İKT | 6 | 507.40 | 42.73 |
| Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | 4 | 405.00 | 34.11 |
| **Cəmi** | **17** | **1,187.40** | **100.00** |
| **Cəmi ayrılmış kreditlər** | | | **$330.1 milyon** |

İKT = informasiya və kommunikasiya texnologiyası.

[a] Dövlət və qeyri-dövlət sektoru üzrə kreditlər daxildir.

[b] Rəqəmlər yuvarlaqlaşdırıldığından Cəm düz gəlməyə bilər.

**Cədvəl 3. Azərbaycan: Məhsullar üzrə Qeyri Dövlət Sektorunun Maliyyələşdirilməsi**

| | |
|---|---|
| Layihələrin sayı | 5 |
| | **Məbləğ** ($ milyon) |
| Kreditlər | 93.00 |
| Kapital yatırımları | – |
| Zəmanətlər | – |
| Biznes kreditlər | – |
| **Cəmi** | **93.00** |

– = sıfır.

## Tərəfdaşlıq

Asiya İnkişaf Bankı (AİB) Azərbaycan Hökuməti və inkişaf üzrə tərəfdaşlarla 1999-cu ildən əməkdaşlıq edir. 2005-ci ilin may ayında AİB ölkə üzrə strategiya və proqramların Hökumətin yeni uzun-müddətli inkişaf strategiyası ilə uzlaşdırılması məqsədilə Azərbaycan Hökuməti, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı və Dünya Bankı ilə birgə bəyannamə imzalamışdır. İlk dəfə Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı çərçivəsində yaradılmış sektor üzrə işçi qruplar hökumətin strategiyası üzrə əsaslı və əlaqələndirilmiş idarəçiliyi təmin etmək məqsədilə maraqlı tərəfləri bir araya gətirmişdir.

AİB göstərilən xidmətlərin səmərəlilik, keyfiyyət və davamlılığını gücləndirmək məqsədilə vətəndaş cəmiyyəti təşkilatları ilə əməkdaşlıq edir. 2006-cı ildə AİB Azərbaycanda HİV/QİÇS üzrə forum təşkil etmişdir. Bu əməkdaşlıq AR Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Milli QHT Forumu və vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə daha da gücləndirilmişdir. AİB texniki yardım (TY) layihəsi çərçivəsində maliyyələşdirdiyi su təchizatı və kanalizasiya, yol layihələrində gender bərabərliyinə də önəm verən inkişafı təşviq edir ki, bu vətəndaş cəmiyyəti təşkilatlarının layihə icrasına cəlb olunmasını gücləndirəcəkdir.

## Əməliyyatların İcrası ilə Bağlı Məsələlər

Azərbaycanın qarşılaşdığı əsas çətinliklər qeyri-neft sektorunda dayanıqlı inkişafın həyata keçirilməsi, infrastrukturun təkmilləşdirilməsi, regionlar arasında iqtisadi bərabərsizliyi azaltmaqla sosial inkişafın əhatəliliyini təmin edilməsi, yaxşı idarəçiliyin təşviqi, və özəl sektor üçün inkişaf mühitin təkmilləşdirilməsidir.

AİB-in həmçinin hökumətin layihələr üzrə cədvəlinə uyğunlaşdırmaq məqsədilə layihələrin reallaşdırılması prosesini sistemləşdirməlidir. AİB-in göstərdiyi yardımlar onun ölkə üzrə strategiya və proqramı, mövcud kredit portfelinin icrası, inkişaf üzrə digər tərəfdaşların fəaliyyətləri, və institusional çərçivə əsasında yönləndiriləcəkdir. Yalnız icraçı qurumlar tərəfindən tam dəstəklənən və sosial baxımdan icmalar üçün məqbul sayılan yeni layihələr həyata keçiriləcəkdir.

## Gələcək Fəaliyyət İstiqamətləri

2012-ci ildə AİB hökumətə infrastruktur layihərinin—su təchizatı və kanalizasiya, enerji, və nəqliyyat—icrasına yardım etməkdə davam etdirəcəkdir ki, bunlar hökumətin inkişaf prioritetlərinə uyğundur. AİB həmçinin Azərbaycanda maliyyə və infrastruktur sektorlarında özəl sektor üzrə əməliyyatların həyata keçirilməsini davam etdirəcəkdir.

Asian Development Bank

31 dekabr 2011

## Məzmun

AİB-ə üzv olduğu andan etibarən Azərbaycan ümumilikdə $1.19 milyard kredit vəsaiti əldə etmişdir: nəqliyyat sektoru (42.73%), su təchizatı və kanalizasiya (34.11%), enerji sektoru (15.75%), maliyyə sektoru (5.56%), və kənd təsərrüfatı sektoru (1.85%). Bundan əlavə, 2000-dən 2011-ə kimi AİB $12.1 milyon həcmində TY qrantını təsdiqləmişdir. AİB beş bankla ticarətin maliyyələşdirilməsi proqramı üzrə razılaşmaları imzalamaqla, onlara kredit xətləri açılması və təminatlı dəstəyin verilməsi ilə maliyyə sektorundakı əməliyyatlarını artırmışdır.

AİB-ın Azərbaycandakı əməliyyatları yoxsulluğu azaldılması, dayanıqlı və əhatəli iqtisadi inkişafın artırılması məqsədilə hökumətin inkişaf strategiyası ilə birgə həyata keçirilir. AİB hökumətə institusional potensialı artırmaq və uzun-müddətli, dayanıqlı iqtisadi və sosial inkişaf strategiyası və proqramını hazırlamaq üçün texniki yardımların həcmini artırmışdır.

## AİB-in Dəstəklədiyi Layihə və Proqramlar

Əməliyyatlara başladığı ilk vaxtlarda, AİB hökumətə yoxsulluğun təhlili və digər analitik fəaliyyətlərin gücləndirməsi, strateji inkişaf planının hazırlanması və inkişafa dair siyasətin ümumi prinsiplərinin hazırlanması sahəsində potensialının gücləndirilməsi üçün geniş yardım göstərmişdir. AİB-in yardımı qurumlara dövlət borcunun idarəçiliyi potensialının gücləndirilməsi, makroiqtisadi məlumatların təhlili və kənd təsərrüfatı üzrə orta müddətli iqtisadi siyasətlərin hazırlanmasına yardım etmişdir. Sektorlar arası yardımın göstərilməsində məhdudiyyətin olmasına baxmayaraq AİB hökumətə həmçinin yoxsulluğun azaldılması strategiyasının monitorinqində uğurla yardım göstərmişdir. AİB su təchizatı və kanalizasiya, nəqliyyat və enerji sektoru kimi seçimli sektorlara kreditin verilməsini genişləndirmək üçün məsləhət xarakterli texniki yardım göstərmişdir.

AİB-ın texniki yardımı ölkəyə inkişaf üzrə bəzi məqsədlərə nail olmaqda yardımçı olmuşdur. Məcburi köçkünlər üçün layihə çərçivəsində 400-dən çox ailənin yaşayışı yaxşılaşmış, dörd orta ümumtəhsil məktəbi bərpa edilmiş, və qadınlar da daxil olmaqla məcburi köçkünlərə kiçik həcmdə kreditlər vermişdir. Daşqınlarla mübarizə layihəsi 240,000 dən çox insanı daşqından qorumuşdur. Ümumilikdə ölkə əhalisi yeni və bərpa edilmiş 200 km magistral və şosse yollarından faydalanacaqdır. Azərbaycanın kiçik şəhərlərində yaşayan təqribən 350,000 min nəfər insan yüksək keyfiyyətli və təmiz içməli su əldə edir və edəcəklər. Həmçinin AİB tərəfindən yerli banklara kreditlərin verilməsi nəticəsində kiçik və orta ölçülü müəssisələr də asanlıqla maliyyə vəsaitləri əldə edə biliblər. AİB-in ticari maliyyə proqramı kiçik və orta ölçülü müəssisələr üzrə 52 əməliyyat, regiondaxili ticarətin aparılmasını dəstəkləmiş, Azərbaycan və AİB-ə üzv olan digər inkişaf etməkdə olan dövlət arasında ticarətin aparılmasına təqribən $41 milyon vəsait ayırmışdır. AİB-in Azərbaycanda özəl sektorda infrastruktur üzrə ayrıdığı birinci kredit çərçivəsində sement zavodunda “yaş üsulla” işləyən sobaların müasir “quru üsulla” işləyən sobalarla əvəzlənmişdir ki, bununla hər bir ton klinker üçün yanacaq sərfiyyatı təxminən 50% azaldılmış və ekoloji standartlara əməletmə səviyyəsi artırılmışdır. Davam etməkdə olan enerji layihəsi enerji təchizatındakı fasilələri azaldacaq.

### Cədvəl 4. Azərbaycan: İnkişaf Göstəriciləri

| | |
|---|---|
| **Qeyri-MİM** | |
| Əhali (milyon nəfər) | 9.11 [2011] |
| Əhalinin illik artım səviyyəsi (%) | 1.1 [2009–2011] |
| Əhalinin maariflənmə səviyyəsi (%) | 99.5 [2007] |
| Şəhər əhalisi (%) | 52.2 [2010] |
| **MİM** | |
| Gündəlik $1.25-dən az gəliri olan əhalinin faizi | 0.4 [2008] |
| Ölkə üzrə yoxsulluq səviyyəsindən aşağı yaşayan əhalinin faizi | 9.1 [2010] |
| Hər 1,000 diri doğuş üzrə 5 yaşadək uşaqlar arasında ölüm səviyyəsi | 46 [2010] |
| Təmizlənmiş içməli su mənbələrindən istifadə edən əhalini faizi | 80 [2010] |

MİM = Minilliyin İnkişaf Məqsədləri, AQP = alıcılıq qabiliyyəti pariteti.

Mənbə: AİB. 2012.*Əsas Statistik Göstəricilər 2012.* Manila;
Birləşmiş Millərlət Təhsili, Statistik Məlumatlar Mərkəzi İnstitutu;
Dünya Bankı. 2012. Dünya İnkişaf Göstəriciləri–Onlayn.

### Cədvəl 5. Azərbaycan: İqtisadi Göstəricilər, 2007–2011

| İqtisadi Göstərici | 2007 | 2008 | 2009 | 2010 | 2011 |
|---|---|---|---|---|---|
| Adambaşına düşən ÜMG, Atlas metodu ($) | 2,710 | 3,870 | 4,800 | 5,330 | ... |
| ÜDM-də artım (illik dəyişiklik %-lə) | 25.1 | 10.8 | 9.3 | 5.0 | 0.1 |
| İQİ (illik dəyişiklik %-lə) | 16.7 | 20.8 | 1.5 | 5.7 | 7.9 |
| İşsizlik səviyyəsi (%) | 1.2 | 1.0 | 1.0 | 2.0 | 3.0 |
| Maliyyə balansı (ÜDM-də payı %-lə) | (0.2) | 0.2 | (0.7) | (0.9) | 0.6 |
| İxrac artım (illik dəyişiklik %-lə) | 63.4 | 43.8 | (31.0) | 25.5 | 0.4 |
| İdxal artım (illik dəyişiklik %-lə) | 14.7 | 25.3 | (14.0) | 3.6 | 44.7 |
| Cari büdcə balansı (ÜDM-də payı %-lə) | 27.3 | 33.7 | 23.0 | 28.4 | 28.7 |
| Xarici borc (ÜMM-də payı %-lə) | 10.5 | 8.8 | 8.0 | 7.7 | ... |

( ) = mənfi, ... = məlumat yoxdur, İQİ = istehlakçı qiymət indeksi, QDM = ümumi daxili məhsul, ÜMG = ümummilli gəlir.

Mənbələr: AİB. 2012. *Asiya İnkişaf Perspektivi 2012.* Manila;
AİB əməkdaşlarının hesablamaları;
Dünya Bankı. 2012. Dünya İnkişaf Göstəriciləri–Onlayn.

### Cədvəl 6. Azərbaycan: Layihə üzrə Uğur Reytinqi

| Sektor | %[a] | Reytinq verilmiş Layihələr / Proqramların nömrələri |
|---|---|---|
| Kənd təsərrüfatı və təbii sərvətlər | 100.00 | 1 |
| Nəqliyyat və İKT | 100.00 | 1 |
| Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | – | 1 |
| **Cəmi** | **66.67** | 3 |
| **Təsdiq olunma ili** | | |
| 2000s | 66.67 | 3 |

– = sıfır, IKT = informasiya və kommunikasiya texnologiyası.

[a] Layihə/Proqramın tamamlanması hesabatının (LTH), LTH-nin etibarlılıq hesabatı (LTHEH) və layihə/proqramın qiymətləndirmə hesabatının (LPQH) nəticələrinə əsasən, LTH və LTHEH/LPQH reytinqləri olan yerlərdə LTHEH, yaxud LPQH reytinqlərindən istifadə etməklə.

Mənbələr: LTH-lər, LTHEH-lər, və LPQH 31 Dekabr 2010-cu il tarixə olan reytinqləri nəzərə almaqla.

### Cədvəl 7. Azərbaycan: Dövlət Kreditləri üzrə Portfelin İcrasının Keyfiyyət Göstəriciləri, 2010–2011

| | | |
|---|---|---|
| Cari kreditlərin sayı (31 dekabr 2011) | | 9 |
| | **2010** ($ milyon) | **2011** ($ milyon) |
| Müqavilələr /Öhdəliklər[a,b] | 169.4 | 61.1 |
| Ödənilmiş kreditlər[a] | 47.0 | 108.5 |
| Cari qrantların sayı (31 dekabr 2011)[c] | | – |
| | **2010** ($ milyon) | **2011** ($ milyon) |
| Müqavilələr /Öhdəliklər[a,b] | – | – |
| Ödənilmiş kreditlər[a] | – | – |
| Riskli layihələr (%) | | 20.0 |

– = sıfr.

Qeyd: Rəqəmlər yuvarlaqlaşdırıldığından Cəm düz gəlməyə bilər.

[a] İl ərzində müqavilə bağlandığı yaxud kredit vəsaitlərinin ayrıldığı bağlanmış kreditlər daxildir.

[b] Siyasətə əsaslanan kreditlər/qrantları daxildir.

[c] Yalnız AİF və digər AİB Xüsusi Fondları daxildir.

## Birgə Maliyyələşdirmə

Birgə maliyyələşdirmə əməliyyatları AİB-ın maliyyələşdirmə üzrə tərəfdaşlarına–hökumət yaxud onun agentlikləri, çoxşaxəli maliyyə institutları, və kommersiya təşkilatlarına AİB-in layihələrinin maliyyələşdirilməsində iştirak etməyə imkan verir. Rəsmi kredit və qrantlar və biznes kreditlər, riskin ötürülməsi üzrə sövdələşmələr, paralel kreditlər, və AİB Ticari Maliyyə Proqramı çərçivəsində əməliyyatların birgə üçün kommersiya şərtləri ilə əlavə vəsait təqdim olunur.

2011-ci ilin sonuna Azərbaycan üzrə birbaşa, əlavə dəyərli rəsmi birgə maliyyələşmənin həcmi iki investisiya layihəsi üzrə $181.2 milyon və TY layihələri üzrə $0.9 milyon olub.

2007-ci il yanvar ayının 1-dən 2011ci il dekabr ayının 31 dək olan müddət ərzində birgə maliyyələşdirilmiş layihələrə dair icmal məlumatı www.adb.org/countries/azerbaijan/cofinancing linkindən vasitəsilə əldə etmək mümkündür.

## Dövlət Zəmanəti Olmayan Layihələr

Özəl investisiyalara katalizator olaraq AİB dövlət zəmanəti olmayan və özəl sektora aid olan layihələrə birbaşa kreditlər, kapital yatırımları, zəmanətlər, biznes kreditlər və ticari maliyyəşmə formasında birbaşa maliyyə yardımı göstərir. Yardıma başladığı vaxtdan AİB dövlət zəmanəti olmayan layihələr üzrə maliyyələşməyə $93 milyon vəsaitin ayrılmasını təsdiqləmişdir ki, bütün bunlar Azərbaycandakı özəl sektor üzrə 5 layihə üçün nəzərdə tutulmuşdur. 2011-ci il dekabrın 31-ə olan tarixdə AİB-in ölkədəki özəl sektor üzrə əməliyyatları ilə bağlı ilin sonuna olan ümumi qalıq və öhdəliklərin həcmi $38.2 milyon olmuşdur ki, bu AİB-ın özəl sektor üzrə kredti portfelinin 0.7% təşkil edir.

## Satınalma

1968-ci il yanvar ayının 1-dən 2011-ci il dekabr ayının 31-dək olan müddət ərzində podratçı və təchizatçılar AİB-in ümumi dəyəri $109.78 milyard olan kredit layihələri üzrə 197,338 sayda müqaviləyə cəlb olunmuşlar. Eyni dövr ərzində Azərbaycandan olan podratçı və təchizatçılar AİB-in ümumi dəyəri $349.88 milyon olan 103 sayda müqaviləyə cəlb edilmişlər.

1968-ci il yanvar ayının 1-dən 2011-ci il dekabr ayının 31-dək olan müddət ərzində məsləhətçilər AİB-in ümumi dəyəri $4.81 milyard olan kredit layihələri üzrə 12,179 sayda müqaviləyə cəlb olunmuşlar. Eyni dövr ərzində Azərbaycandan olan məsləhətçilər AİB-in ümumi dəyəri $6.34 milyon olan 11 sayda müqaviləyə cəlb olunmuşlar.

1968-ci il yanvar ayının 1-dən 2011-ci il dekabr ayının 31-dək olan müddət ərzində məsləhətçilər AİB-in ümumi dəyəri $3.42 milyard olan TY yardım layihələri üzrə 24,484 müqavilədə iştirak etmişlər. Eyni dövr üzrə Azərbaycandan olan məsləhətçilər AİB-in TY layihələri üzrə ümumi dəyəri $0.89 milyard olan 48 müqavilədə iştirak etmişlər.

### Cədvəl 8. Azərbaycan: Birgə Maliyyələşdirilmiş Layihələr, 1 yanvar 2007–31 dekabr 2011

| Birgə maliyyələşdirmə | Layihələrin sayı | Məbləğ ($ milyon) |
|---|---|---|
| Layihə[a] | 2 | 322.46 |
| Rəsmi kredit | 1 | 178.67 |
| Kommersiya birgə maliyyələşdirməsi | 1 | 143.79 |

[a] Birdən çox birgə maliyyələşdirmə mənbəyinə malik olan layihə bir dəfə nəzərə alınır.

### Cədvəl 9. Azərbaycan: Satınalma Müqavilələrinin Xüsusi Çəkisi

| | 2010 | | 2011 | | Məcmu (31 Dekabr 2011) | |
|---|---|---|---|---|---|---|
| Xərc bəndi | Məbləğ ($ milyon) | Cəmi %-lə | Məbləğ ($ milyon) | Cəmi %-lə | Məbləğ ($ milyon) | Cəmi %-lə |
| Mal və xidmətlər | 165.99 | 2.55 | 59.36 | 0.83 | 349.88 | 0.32 |
| Konsaltinq xidmətləri | 0.02 | 0.01 | 1.80 | 0.42 | 7.23 | 0.09 |

### Cədvəl 10. Azərbaycan: AİB Kredit Layihələrinə Cəlb Olunmuş Podratçılar/Təchizatçılar, 1 yanvar 2007–31 dekabr 2011

| Podratçı/Tədarükçü | Sektor | Müqavilənin məbləği ($ milyon) |
|---|---|---|
| Azenco | Enerji | 128.60 |
| Azərinşaatservis MMC | Nəqliyyat və İKT | 92.72 |
| Gəmiqaya Şirkəti, MMC | Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | 34.72 |
| Atinak Muh. Ins. San Ve Tic A.S. | Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | 32.95 |
| Gəncə Körpü Tikinti ASC | Nəqliyyat və İKT | 7.21 |
| Əlibəyli Şirkəti, MMC | Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | 6.99 |
| R.I.S.K. MMC | Sənaye və Ticarət | 6.19 |
| Saylı Təmir Tikinti Konsorsiumu və digərləri | Su Təchizatı və Digər Bələdiyyə İnfrastrukturu və Xidmətləri | 6.00 |
| Qlobal KS | Nəqliyyat və İKT | 4.97 |
| General İnşaat | Nəqliyyat və İKT | 2.78 |

İKT = informasiya və kommunikasiya texnologiyası.

### Cədvəl 11. Azərbaycan: AİB Kredit Layihələrinə Cəlb Olunmuş Əsas Məsləhətçilər (Fərdi Məsləhətçilər və Konsaltinq Firmaları), 1 yanvar 2007–31 dekabr 2011

| Məsləhətçi | Bağlanmış müqavilələrin sayı | Müqavilə məbləği ($ milyon) |
|---|---|---|
| Ay Konsaltinq MMC, Avropalı Məsləhətçilər birgə | 2 | 6.01 |
| Audit-Lider MMC | 2 | 0.14 |
| Globus-Print MMC | 1 | 0.03 |
| Fərdi məsləhətçilər | 6 | 0.16 |

### Cədvəl 12. İnkişaf Etməkdə Olan Üzv Dövlətlərə AİB-in Göstərdiyi Yardımlar, 2010–2011[a]

| | 2010 ($ milyon) | 2011 ($ milyon) | Dəyişiklik (%) |
|---|---|---|---|
| Kredit | 11,444.53 | 12,605.46 | 10.14 |
| AİF, Dövlət | 2,212.57 | 1,954.85 | (11.65) |
| ASK, Dövlət | 8,196.96 | 9,050.61 | 10.41 |
| ASK, Qeyri-dövlət | 1,035.00 | 1,600.00 | 54.59 |
| Dövlət sektoru | – | 600.00 | |
| Özəl sektor | 1,035.00 | 1,000.00 | (3.38) |
| Kapital sərmayəsi | 235.00 | 239.00 | 1.70 |
| Qrantlar[b] | 1,052.86 | 844.14 | (19.82) |
| Texniki Yardım Qrantları | 325.00 | 359.39 | 10.58 |

– = sıfır, ( ) = mənfi, AİF = Asiya İnkişaf Fondu, ASK = adi səhm kapitalı.

[a] Ləğv edilmiş kreditlər, kapital sərmayələri, texniki yardımlar və qrantlar daxil deyil.

[b] AİB tərəfindən idarə edilməyən birgə maliyyələşdirilən qrantlar daxil deyil.

# Azərbaycan və AİB haqqında

**AİB Üzvlüyü**
1999-cu ildə Azərbaycan AİB-ə üzv olmuşdur

**Səhmlər və Səsvermə Hüququ**

| | |
|---|---|
| Sahib olduğu səhmlərin sayı: | 47,208 (ümumi səhmlərin 0.45%-i) |
| Səslər: | 86,698 (ümumi üzvlüyün 0.66%-i, regional üzvlüyün 1.01%-i) |
| Ümumi kapitalda iştirakçılıq: | $724.77 milyon |
| Ödənilmiş kapitalda iştirakçılıq: | $36.32 milyon |

**Fil Bouen** İcraçı Direktordur və **Endryu Kollins** AİB-in Direktorlar Şurasında Azərbaycanı təmsil edən İcraçı Direktorun müavinidir.

**Olly Norojono** AİB-ın Azərbaycandakı Daimi Nümayəndəsidir. Azərbaycandakı Daimi Nümayəndəliyi (ADN) 2004-cü ildə açılmışdır və AİB ilə hökumət, özəl sektor və vətəndaş cəmiyyəti kimi maraqlı tərəflərlə başlıca əlaqə yaradan qurumdur. AZRM siyasətlə bağlı dialoqlarda iştirak edir və Azərbaycandakı inkişafla bağlı məsələlər üçün bilik və məlumat bazası kimi çıxış edir.

AİB ilə bağlı məsələlərdə Azərbaycan hökumətinin agenti kimi Maliyyə Nazirliyi çıxış edir.

**Asiya İnkişaf Bankı haqqında**

AİB 48-i Asiya regionu və qalan 19-u isə dünyanın digər qitələrindən olmaqla 67 üzvə malik beynəlxalq inkişaf bankıdır. AİB-in inkişaf etməkdə olan üzv dövlətlərə yardımla bağlı əsas alətləri siyasi dialoq, kreditlər, səhm kapital yatırımları, zəmanətlər, qrantlar, və texniki yardımlardır (TY). 2011-ci ildə verilmiş kreditlərin həcmi $12.61 milyard (104 layihə) omuşdur ki, onlardan TY üzrə layihələrin həcmi $148 milyon (212 layihə) və qrant əsasında maliyyələşdirilən layihələrin həcmi $614 milyon (23 layihə) təşkil etmişdir. Bundan əlavə, $7.7 milyard həcmində rəsmi kredit və qrantlar və biznes kreditləri, riskin ötürülməsi tapşırığı, paralel kreditlər, və AİB Ticari Maliyyə Proqramı üzrə əməliyyatların birgə maliyyələşdirilməsi kimi kommersiya birgə maliyyələşdirməsi şəklində əlavə vəsaitləri təqdim olunub. 2007-ci il yanvar ayının 1-dən 2011-ci il dekabr ayının 31-dək AİB-in illik ayırdığı kreditlər ümumilikdə $11.34 milyard olmuşdur. Bundan əlavə, AİB və xüsusi fondlar üzrə resurslar əsasında maliyyələşdirilən TY və investisiya qrantları $755.3 milyon olmuş və həmin dövr üzrə Texniki Yardımlara $175.0 milyon vəsait ayrılmışdır. 2011-ci il dekabr ayının 31-ə olan tarixə birgə maliyyələşməni nəzərə almasaq 42 ölkədə 2,423 layihə üzrə ayrılmış ümumi kreditin məbləği $179.7 milyard, 186 qrant layihəsi üzrə $5.0 milyard, və regional TY layihələri də daxil olmaqla bu layihələr üzrə qrantlar $3.3 milyard olmuşdur.

## Əlaqə Məlumatları


Azərbaycandakı Daimi Nümayəndəlik
45 A Xaqani küçəsi, Landmark II,
3-cü mərtəbə Bakı AZ1010, Azərbaycan
Tel +994 12 437 3477
Faks +994 12 437 3475
adbazrm@adb.org
www.adb.org/azerbaijan

AİB Baş Ofisi
6 ADB Prospekti, Mandaluyong şəhəri
1550 Metro Manila, Filippin
Tel +63 2 632 4444
Faks +63 2 636 2444

Maliyyə Nazirliyi
Bakı, AZ1022, Azərbaycan
Tel +994 12 404 4699
Faks +994 12 404 4721
www.maliyye.gov.az


AİB üzrə faydalı internet səhifələri

Asiya İnkişaf Bankı
**www.adb.org**

Asiya İnkişafına Nəzər
**www.adb.org/publications/series/asian-development-outlook**

İllik Hesabat
**www.adb.org/documents/series/adb-annual-reports**

Kitabxanalar
**www.adb.org/publications/depositories/aze**

Bu sənəddə, “$” işarəsi ABŞ dolları anlamında işlədilib.
Əksi göstərilmədiyi təqdirdə məlumatlar 31 dekabr 2011-ci ilə aiddir. Məlumatlar cədvəli hər ilin aprel ayında yenilənir.